***Azərbaycan müstəqillik dövründə dünyanın əksər ölkələri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq qurub. Bu münasibətlər həm siyasi, həm ticarət-iqtisadi, həm də digər sahələri əhatə edib. Ermənistanın ölkəmizə təcavüzünün aradan qaldırılması ilə bağlı bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən, ATƏT-lə, Avropa İttifaqı ilə əməkdaşlıq etmişik. Şübhəsiz ki, karbohigrogen ehtiyatları ilə zəngin olan Azərbaycan son 30 illik dövrdə Avropanın ayrı-ayrı ölkələri ilə neft və qaz sahələri üzrə də əlaqələr yaradıb. Təsadüfi deyil ki, bu gün Avropanın enerji təminatında Azərbaycanın oynadığı rol yüksək qiymətləndirilir.***



# Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq strateji səviyyəyə qaldırılır

Son illərdə Avropa İttifaqı ilə əməkdaşlıq xüsusi templə inkişaf edir. Əlaqələrin möhkəmlənməsində Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə, Aİ Şurasının Prezidenti Şarl Mişelin Bakıya səfərləri böyük rol oynayıb. Keçirilmiş görüşlər Azərbaycan-Aİ əməkdaşlığını yeni mərhələyə qaldırıb. Təbii ki, ölkəmizin 2020-ci ilin noyabrında Ermənistan üzərində tarixi qələbə qazanmasından sonra yaratdığı yeni reallıqlar Aİ tərəfindən qəbul edilib və bu təşkilat Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına özünün töhfələrini verməyə başlayıb.

Bütün bunlar barədə hələ 2021-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşündə geniş fikir mübadiləsi aparılıb. Azərbaycan lideri Şarl Mişellə birgə mətbuat konfransında bəyan edib ki, Avropa İttifaqı Azərbaycan üçün yaxın tərəfdaşdır. Biz uzun illərdir ki, müxtəlif sahələrdə işləyirik. Prezident İlham Əliyevin sözlərinə görə, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin, demək olar ki, 40 faizi Avropa İttifaqı ilə aparılır. Ötənilki ticarət dövriyyəsi, demək olar ki, 9,5 milyard ABŞ dolları təşkil edib. Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard dollar təşkil edir. Üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib. Beləliklə, Avropa İttifaqına üzv dövlətlərin üçdə biri Azərbaycanı strateji tərəfdaş hesab edir. Dövlətimizin başçısı bunu hökumətimizin fəaliyyətində çox böyük nailiyyət kimi qiymətləndirərək deyib ki, bu, həm də əməkdaşlıq üçün əlavə imkanlar yaradır.

Azərbaycan Prezidenti enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması ətrafında müzakirələr aparıldığını, ötən ilin sonuncu günündə dəhlizin sonuncu – dördüncü seqmenti olan Trans-Adriatik kəmərinin istismara verildiyini bəyan edib. Cənub Qaz Dəhlizi layihəsinə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard dollardan çoxdur. Nəticədə 2021-ci il yanvarın 1-dən iyuladək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Əlbəttə ki, Avropa bazarına ixrac olunacaq təbii qazın həcmi artacaq.

Azərbaycan liderinin dediyinə görə, artıq 15 ildir ki, Azərbaycan Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır. Bundan sonra qaz təchizatçısı kimi də Azərbaycanın potensialı artacaq. Eyni zamanda, nəhəng nəqliyyat infrastruktur layihələrinin tamamlanmasından sonra Avropa İttifaqı ilə Azərbaycan arasında bağlılıq daha da güclənir. İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılması üçün yeni imkanlar var.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyduğunu qeyd edən dövlət başçısı bildirib ki, bununla ölkəmiz BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini yerinə yetirib. Ona görə də indi sülh barədə düşünmək vaxtıdır. Prezident İlham Əliyev dedi: "Biz buna hazırıq. Bu gün biz cənab Prezidentlə planlarımızı, təşəbbüslərimizi və yeni yaranmış vəziyyətə yanaşmalarımızı geniş şəkildə müzakirə etdik. Düşünürəm ki, nisbətən qısa zamanda xoş məram və çox praqmatik yanaşma nümayiş etdirməklə, biz hələ də masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik. Avropa İttifaqı bu baxımdan çox mühüm rol oynayır və əminəm ki, oynayacaq. Cənab Prezidentin (Şarl Mişelin – red.) Cənubi Qafqazın 3 ölkəsinə səfəri Avropanın iştirakını, Avropa gündəliyini nümayiş etdirir və bu, bizim gündəliyimizə tam uyğundur. Bu məsələdə də bizim fikirlərimiz üst-üstə düşür və əlbəttə ki, bağlılıq və işğaldan azad edilmiş ərazilərin yenidən qurulması məsələləri baxımından münaqişədən sonrakı inkişaf hər zaman aramızdakı gündəlikdə olacaq".

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də özünün bəyanatında qeyd edib ki, Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığa strateji xarakter vermək haqqında düşünür: "Bu gün səhər mən Azərbaycanda innovasiya, peyk, həmçinin infrastruktur sahələrində gələcəyə yönələn layihələrlə tanış oldum. Bakı limanında, həmçinin regional miqyasda yeni imkanlar yaratmaq işləri ilə tanış oldum. Biz anlayırıq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil. Əksinə, bu, birgə iş aparmaq istəyinə, innovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıqdır. Məhz bu ruhda iqtisadi inkişaf baxımından Avropa İttifaqının hesab etdiyi iki prioritet – iqlim dəyişməsi və rəqəmsal inqilab birgə başladığımız layihələrin əsasında olmalıdır".

Azərbaycan-Ermənistan münasibətlərinə toxunan Şarl Mişel bildirib ki, Aİ müəyyən həll variantlarına, müxtəlif məsələlər üzrə irəliləyişə nail olmaq üçün səyləri dəstəkləməyə hazırdır. Məsələn, sərhədlərin delimitasiyası məsələsində Aİ öz imkanlarını təqdim edə bilər.

Sonradan Aİ Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ardıcıl səylər göstərib, görüşlər və danışıqlar davam etdirilib. Bu il aprelin 6-da Brüsseldə Prezident Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Aparılmış danışıqların nəticələri ilə bağlı bəyanatında Mişel gərginliklərin aradan qaldırılması, Ermənistan və Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsi və regionda yaşayan bütün xalqların faydası naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazın təşviq edilməsinə Avropa İttifaqının sadiq olduğunu bildirib.

Onun sözlərinə görə, liderlər 2021-ci ilin dekabrında Brüsseldə keçirilmiş son görüşdən və 2022-ci ilin fevral ayında Fransa Prezidenti Makronun iştirakı ilə videokonfransdan sonra hadisələrin inkişafını və tərəflərin üzərinə götürdüyü öhdəliklərin icrası ilə bağlı irəliləyişi nəzərdən keçiriblər, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına tam riayət edilməsinin zəruriliyini qeyd ediblər. Prezident Şarl Mişel etimadı və dinc birgə yaşayışı təşviq etmək məqsədilə hər iki tərəfdən humanitar jestlərin olduğunu vurğulayıb. O, həll olunmamış bütün humanitar məsələlərin tam və çevik həllinə ehtiyacın olduğunu, itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli həllinin vacibliyini və Avropa İttifaqının bu işə dəstək göstərməyə hazır olduğunu bildirib. Avropa İttifaqı həm də Azərbaycan və Ermənistan arasında etimadın qurulmasına, minatəmizləmə səylərinə, o cümlədən ekspert məsləhətini təmin etməyə davam etməklə münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının artırılması, bərpa və yenidənqurma işlərinə dəstək olacaq.

Prezident Mişel bəyan edib ki, həm Prezident Əliyev, həm də baş nazir Paşinyan sülh sazişinə doğru sürətlə irəliləmək arzularını ifadə ediblər. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırıq verilib. Eyni zamanda, hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası zəruri olacaq. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi Bəyanatına uyğun olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub. Birgə Sərhəd Komissiyasının mandatına aşağıdakılar daxil olacaq:

1. Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası.
2. Sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi.

Bununla yanaşı, Ermənistan və Azərbaycan arasında, Cənubi Qafqazda kommunikasiya-bağlılıq infrastrukturunun bərpası, dəmir yollarının bərpası istiqamətində atılmış addımlar alqışlanıb. Avropa İttifaqı isə bütün problemlərin həlli üçün məsləhət və dəstək verməyə hazırdır. Prezident İlham Əliyev Avropa İttifaqının, xüsusən Prezident Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəni həmişə yüksək qiymətləndirib.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***